

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 135 (23.547)

19 avqust 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Özbəkistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovun etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin və əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib, iki ölkə arasında fəal siyasi dialoqun aparıldığını vurğulayaraq Azərbaycanın Özbəkistanla beynəlxalq təşkilatlar, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində yaxından əməkdaşlıq etdiyini bildirib. Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sammitində iştirakının əməkdaşlığımızın inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Səfir Bahrom Aşrafxanov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ən səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırıb.

Dövlətimizin başçısı Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını və ən xoş arzularını Özbəkistanın Prezidentinə çatdırmağı xahiş edib.

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətinə görə Səyahət Yəhya oğlu İmanov **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 avqust 2020-ci il*

## Naxçıvanbankın yeni filialı tikilir



Əhalinin əlverişli bank xidmətlərindən daha səmərəli yararlanması üçün 2008-ci ildən fəaliyyət göstərən "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin paytaxt Bakı və Naxçıvan şəhərlərində, o cümlədən Şərur, Culfa, Ordubad, Kəngərli rayonlarında filialları istifadəyə verilib. Bu yaxınlarda Şahbuz rayon mərkəzində bankın yeni filialı üçün binanın tikintisinə başlanılıb. Hazırda binanın təməl betonlama işləri aparılır.

Ümumilikdə, 465 kvadratmetr sahədə yerləşəcək filial iki mərtəbədən ibarət olacaq. Binanın birinci mərtəbəsində əməliyyat, xəzinə, server, qiymətlilərin saxlanılması və gözətçi otaqları, müştəri zalı, qazanxana yerləşəcək. İkinci mərtəbə isə direktor və əlavə iş otaqları üçün nəzərdə tutulub.

Yeni filial əhalinin maliyyə resurslarına olan tələbatlarının yüksək səviyyədə ödənilməsinə şərait yaradacaq, burada biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcək.

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilib. Müşavirəni nazir, general-leytenant Şamı Abdullayev açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə nazirliyin qarşısına mövsümi qazanxana işçilərinin əvvəlcədən təlimatlandırılması, bütün ocaqçıların müvafiq kurslara cəlb olunması, yanğın təhlükəsizliyi ilə bağlı tədbirlərin görülməsi, standartın tələblərinə cavab verməyən və sənaye üsulu ilə hazırlanmayan elektrik və qaz məişət cihazlarının muxtar respublikaya idxalının, satışının və istismarının qarşısının alınması, habelə yaşayış məntəqələrində təbii qazdan təhlükəsiz istifadə ilə əlaqədar işlərin görülməsi və xüsusi təhlükəli obyektlərdə reydlərin keçirilməsi ilə bağlı tapşırıqlar qoyulmuşdur.***

Nazir qeyd edib ki, hesabat dövründə 769 qazanxanaya baxış olub, yanğın və texniki təhlükəsizlik tədbirləri görülüb, mövsümi qazanxana işçiləri attestasiyadan keçirilib, 79 nəfər peşə məktəblərində qazanxana maşinisti ixtisası üzrə kurslara cəlb edilib. 90 ticarət obyektində yoxlamalar keçirilərək standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalının, satışının və istismarının qarşısının alınması təmin olunub.

Bildirilib ki, cari ilin müvafiq dövründə 1318 obyektdə yanğın-texniki müayinələr keçirilib, 4 min 819 nəfər yanğına qarşı təlimatlandırılıb. Aparılmış profilaktik tədbirlər nəticəsində 310 ədəd əlavə çəkilmiş elektrik xətti, qeyri-standart elektrik qızdırıcıları və yanğın cəhətdən təhlükəli olan elektrik sahələri qadağan edilib, 692 şlanqla çəkilmiş qaz xətti və qeyri-standart qaz sobalarının istismarı dayandırılıb. Hamam-vanna otağında quraşdırılmış qazla işləyən 73 suqızdırıcının və yanğın cəhətdən təhlükəli yerə yığılmış 28 ot-saman tayasının yeri dəyişdirilib.

Muxtar respublika ərazisində təmir olunmuş və təmir işləri davam etdirilən 11 ictimai yaşayış binasına məxsus 343 tüstü bacası təmizlənib, 73 ictimai yaşayış binasında 643 ümumi tüstü bacasının ətrafının metal torla bağlanması təmin olunub. Fövqəladə hallarda fəaliyyəti zəruri olan 120 müəssisə və təşkilatın fövqəladə hallara hazırlığı yoxlanılıb, Naxçıvan Günəş Elektrik Stansiyasının perimetri boyunca 7,5 kilometr uzunluğunda torpaq yollar çəkilərək minerallaşdırılmış zolaqlar yaradılıb, Kəngərli Günəş Elektrik Stansiyasında yanğın təhlükəsizliyi etibarlı şəkildə təmin edilib.

Muxtar respublikanın yanğın təhlükəli 13 obyektində yaradılmış könüllü yanğın komandalarının hazırlığına və yanğın avtomobillərinin sazlığına nəzarət edilib, Culfa yanğın qatarı ilə yanğın-taktiki məşğələ keçirilib.

Aparılan profilaktik tədbirlər nəticəsində yanğınların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 50 faiz azalıb.

Nazir, həmçinin qeyd edib ki, Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binasının yenidən qurulması və texniki qarajının tikintisi başa çatmaq üzrədir. Şöbənin ən müasir yanğın avtomobilləri, yanğın texniki avadanlıqlar, əşya-əmlaklarla təminat məsələləri öz həllini tapıb. Nazirliyin struktur qurumlarında kiçik təmir işləri aparılıb, Mülki müdafiə alayında 3 aylıq ərzaq, əşya və yanacaq-sürtkü materialları ehtiyatı, habelə yanğınsöndürmə avtomobillərində və anbarlarda 20 min 820 litr köpükəmələgətirən maye ehtiyatı yaradılıb.

Məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində keçirilən müşavirəni nazir Natəvan Qədimova açıb. Bildirilib ki, Mədəniyyət Nazirliyinin tabeliyində 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 2 respublika əhəmiyyətli kitabxana, 1 musiqi kolleci, 30 muzey və muzeytipli müəssisə, 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi, 400-dən çox klub, mədəniyyət evi, kitabxana və kitabxana filialları, mədəni-maarif müəssisələri və digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Bu mədəniyyət müəssisələrinin payız-qış mövsümünə lazımi səviyyədə hazırlığı daim diqqət mərkəzindədir.

Məlumat verilib ki, nazirliyin sisteminə daxil olan müəssisə və təşkilatlardan 1-i ümumiləşdirilmiş havalandırma sistemi, 66-sı qazanxana və kombitipli sistemlə, 340-ı ümumi istilik sistemi ilə, 50-si dizel yanacağı, 2-si maye qaz, 6-sı isə təbii qazla qızdırılır. Hazırda 12 mədəniyyət müəssisəsində tikinti işləri aparılır. Vurğulanıb ki, müəssisə rəhbərləri kitabxana, klub müəssisələri təhlükəsizlik qaydalarına ciddi riayət etməli, xüsusilə mövcud vəziyyətlə əlaqədar tibb-sanitariya işi diqqətdə saxlanılmalı, müəssisələrdə elektrik enerjisindən qanunsuz istifadəyə yol verilməməlidir. Müəssisə rəhbərləri elektrik sayğacı olmayan obyektlərdə sayğac quraşdırılması məsələsini indidən həll etməli, müvafiq orqanlar tərəfindən keçirilən reydlər zamanı belə nöqsanlara rast gəlinməməlidir. Mədəniyyət müəssisələrində payız-qış mövsümünə hazırlıqla bağlı məsul şəxslər oktyabr ayının 15-dək nazirliyə yazılı məlumat verməlidirlər.

Payız-qış aylarında baş verə biləcək hər hansı hal üçün müəssisə rəhbərlərinin birbaşa məsuliyyət daşıdığını vurğulayan Natəvan Qədimova bildirib ki, nazirliyin strukturuna aid olan müəssisələrdə, şəhər (rayon) mədəniyyət şöbələrində və tabeliyində olan müəssisələrdə istilik sistemlərinin və elektrik naqillərinin vəziyyəti əvvəlcədən yoxlanılmalı, nasazlıqlar aradan qaldırılmalıdır. Mədəniyyət müəssisələrində təhlükəsizlik qaydalarına əməl edilməsi üçün müvafiq tədbirlər görülməli, qazanxana işçilərinin peşə təhsilinə diqqət yetirilməli, onların qış geyimləri ilə təmin olunması, mədəniyyət müəssisələrində dizel yanacağı, maye qaz, neft, şüşə, şifer, soba, polietilen və başqa mal-materialların alınaraq düzgün bölünməsi və paylanması, lazımi yerlərə çatdırılmasının təmin edilməsi diqqətdə saxlanılmalıdır.

Diqqətə çatdırılıb ki, ötən payız-qış mövsümü ərzində mədəniyyət müəssisələrində heç bir fövqəladə hal baş verməmiş, fasiləsiz iş rejimi təmin edilmiş, qarşıya çıxan problemlər isə vaxtında aradan qaldırılmışdır. Növbəti payız-qış mövsümünə hazırlıqla əlaqədar işlər düzgün qurulmalı, bütün imkanlardan səmərəli istifadə olunmaqla mədəniyyət müəssisələrində fasiləsiz iş rejimi təmin edilməlidir.

Sonda məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Babək rayonunda sahələrdən 37 min 702 ton məhsul yığılıb

***Muxtar respublikada ərzaq təhlükəsizliyinin etibarlı təminatı üçün əhəmiyyətli addımlar atılır. Qədim diyarda taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə dövlət maliyyə dəstəyinin göstərilməsi, keyfiyyətli toxum sortları və texnikalarla təminat bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir.***

2020-ci ilin məhsulu üçün Babək rayonunda 16 min 172 hektar sahədə əkin aparılıb. Əkin sahələrinin 11 min 767 hektarını taxıl təşkil edib. 11 min 540 hektarda payızlıq, 227 hektarda isə yazlıq taxıl əkilib. Artıq iyun ayından başlayan biçin kampaniyası yekunlaşıb və rayon üzrə 37 min 702 ton məhsul toplanılıb. Nəticələr taxılçılıq sahəsində bir ilkdir. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, taxılçılığa olan marağın ilbəil artması isə təsadüfi deyil. Torpaq mülkiyyətçilərini əkinləri genişləndirməyə vadar edən konkret səbəblər vardır.



Bu gün kəndlinin torpağa möhkəm tellərlə bağlanmasının əsas səbəbi dövlətin aqrar sahədə apardığı islahatlar, gördüyü tədbirlərdir. Bilirik ki, taxıl əkilib-becərilməsi toxumun torpağa düşdüyü andan sünbül dərilənə qədər olan mühüm və çətin mərhələni təşkil edir. Bu dövrdə keyfiyyətli və bol məhsulun götürülməsi üçün dövlət sahibkarın yanında olur, zəruri dəstəyini, köməyini göstərir.

Əvvəla, torpaq mülkiyyətçilərinə ayrılan subsidiya haqqında danışmaq istərdik. Qeyd edək ki, təkcə Babək rayonunda 2019-cu ilin payızlıq əkini üçün 2061 taxıl istehsalçısına 649 min 128 manat məbləğində pul vəsaiti ayrılıb. Yəni dövlət kəndlinin taxılı yetişdirmək üçün çəkdiyi xərcin mühüm bir hissəsini öz üzərinə götürüb. Bundan başqa, məhsuldarlığı artırmaq üçün taxılçılara dövlət tərəfindən 2900 tona yaxın azot, 40 tondan artıq fosfor gübrəsi verilib.

Məlumdur ki, hektarlarla ərazilərdə taxıl əkmək və məhsulu optimal müddətdə sahələrdən götürmək üçün müasir texnikalardan istifadə vacibdir. Artıq Naxçıvanın taxıl sahələrində neçə illər bundan əvvəlki kitək sınıq-salxaq, istismar müddətini başa vurmuş köhnə texnikalardan istifadə edilmir. İndi torpaq mülkiyyətçiləri, mexanizatorlar bərəkət rəmzi olan taxılı ən müasir kombaynlardan istifadə edərək biçib tədarük edirlər. 2020-ci ilin birinci yarısında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə dövlət tərəfindən babəkli sahibkarlara 44 texnika və texnoloji avadanlıq lizinq yolu ilə satılıb.

Yüksək məhsuldarlıq üçün keyfiyyətli toxum sortlarından istifadə mühüm şərtdir.Yaxşı deyiblər ki, nə əkərsən, onu da biçərsən. Biçin zamanı məhsulun bol və keyfiyyətli olması üçün torpağa düşən dən yaxşı olmalıdır. Kənd təsərrüfatının strateji əhəmiyyətli istehsal sahələrindən olan toxumçuluğun inkişafı da daim diqqətdə saxlanılır. Bu məqsədlə yeni toxumçuluq təsərrüfatları yaradılıb. Belə ki, "Araz" Elm-İstehsalat Birliyi və "Bərəkət Toxumçuluq" Kompleksində peşəkar mütəxəssislər tərəfindən yetişdirilən toxumlar Naxçıvan torpağının iqlim şəraitinə uyğunlaşdırıldığı üçün aqrar sahənin inkişafında əhəmiyyətli rol oynayır. Əsasən, payızlıq əkin zamanı "Quality", "Ceyhan", "Bezostaya", "Roze", "Qiymətli", "Dağdaş" və başqa keyfiyyətli toxum sortlarından istifadə edilir. Bu toxumlar yüksək cücərmə və məhsuldarlıq qabiliyyətinə malikdir.

Ötən əsrin 90-cı illərində çörəklə imtahana çəkildiyimiz vaxtlarda məhsuldar torpaqlarımızın əkilməməsinin əsas səbəblərindən biri də suvarma suyunun az olması idi. Kəskin kontinental iqlim şəraitinə malik olan muxtar respublikada əkin sahələrinin tez-tez suvarılmasına ehtiyac var. 2005-ci ildə istifadəyə verilən Heydər Əliyev Su Anbarı Babək rayonundakı taxıl sahələrinə də, sözün əsl mənasında, "can verib". Beləliklə, mütərəqqi suvarma və əkin metodundan – şırım üsulundan istifadə məhsuldarlığa təsir edən ən mühüm amillərdəndir.

Torpaqların münbitliyinin yaxşılaşdırılması sahəsində görülən işlər imkan verir ki, rayonda illərlə əkilməyən, kənd təsərrüfatı üçün yararsız hesab edilən torpaqlar yenidən əkin dövriyyəsinə qatılsın. Bu ilin ilk altı ayı ərzində rayonda dövlət və bələdiyyə mülkiyyətində olan 6 hektara yaxın torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib.

*Bir sözlə, dövlət taxıl əkən kəndlinin belə desək, "qolundan tutub" dəstək verdiyi üçün bu gün rayonda rekord həddə əkin və məhsuldarlıq göstəricisi qeydə alınıb. Bu həm də qədim diyarın ərzaq təhlükəsizliyinə, iqtisadiyyatına mühüm töhfə verir. Deməli, çörəyimiz yenə də öz təknəmizdən olacaq. Çörəyimiz, bərəkətimiz heç vaxt süfrəmizdən əskik olmasın!..*

**Muxtar RZAZADƏ**

# Şərur bağlarının dadlı meyvəsi: *şaftalı*

***Tarixi, mədəniyyəti, təbiət gözəllikləri ilə məşhur olan qədim Naxçıvanımızın dadı dillər əzbəri olan meyvələri də vardır ki, onların sorağı uzaq diyarlardan gəlir. Azərbaycanımızın hər hansı bir guşəsinə yolumuz düşdükdə orada Naxçıvandan olduğumuzu bilənlər diyarımızın meyvələrinin mövsümdə təzə-tər istifadə ilə yanaşı, qurusunun da faydasından ağızdolusu danışır, bu meyvələrin dadı damaqda qalır, – deyirlər. Bu düşüncələrlə də belə meyvələrin yetişdirildiyi ünvanlardan birinə – muxtar respublikamızın ən böyük rayonu olan Şərura üz tuturam. Yolboyu salınan bağlara baxdıqca qürur hissi keçirirəm. Budur, Yuxarı Daşarx kəndinin ərazisində Bəxtiyar Əsədova məxsus olan bağda müxtəlif növ meyvə ağaclarına rast gəlmək mümkündür. Şaftalı ağaclarının çoxluq təşkil etməsi ilk anda diqqəti çəkir. Bağ sahibi ilə həmsöhbət oluram:***



– Bağçılıq qədim sahədir. Naxçıvanın meyvə bağları həmişə məşhur olub. Mən də 2 hektara yaxın sahədə müxtəlif şaftalı-hülü sortlarından bağ salmışam. Artıq şaftalılar yetişib. Yığım vaxtıdır. Ötən il olduğu kimi, bu il də məhsulumuz boldur. Bazara çıxarmaqda da heç bir çətinliyimiz yoxdur. Həftəsonu yarmarkaları ilə yanaşı, məhsulu elə gəlib bağdan da alıb aparanlar çox olur. Təsərrüfatda çalışan qadınlar şaftalıdan mürəbbə, marmelad, cem, kompot hazırlamaqla bərabər, həm də onu qurudurlar.



"Şaftalıdan hazırlanan məhsullar həmişə süfrəmizin bəzəyi olub. Onun mürəbbəsini bişirmək isə xüsusi bacarıq tələb edir", – deyə söhbətimizə qoşulan Zinyət nənədən bu sirri öyrənirik:

– Mürəbbə üçün şaftalının tam yetişməməyi əsas şərtdir. Öncə qabığını soyub doğrayır, sonra onu əhəngli suya salırıq. Bir-iki saat saxladıqdan sonra çıxarıb yaxşıca yuyuruq. Bir kiloqram şaftalıya bir o qədər də şəkər tozu əlavə edirik. Burada diqqət etməli olduğumuz əsas məqam mürəbbəni bişirəcəyimiz ləyənin dibinin tutduğu qədər şaftalı yığmaqdır. Onu üst-üstə yığsaq, bişəndə əzilər. Şəkər tozunu canına çəkən şaftalının suyu tam üstünə çıxandan sonra onu əvvəlcə vam odda bir dəfə qaynadır, kəfini yığırıq. Sonra ocaqdan götürür, bir az soyuyandan sonra yenidən bişiririk. Bu prosesi bir neçə dəfə təkrar etməklə şaftalı mürəbbəsi hazır olur.

Şaftalının mətindən də söhbət açan Zinyət nənə onu da deyir ki, bunu şəkərsiz də etmək mümkündür. Tam yetişmiş şaftalılar yığılır, təmizlənir, qazana tökülüb qaynadıldıqdan sonra xəlbirdən keçirilir. Alınan məhlul yenidən qaynadılıb balonlara yığılır. On kiloqram şaftalıya bir stəkan şəkər tozu kifayətdir. Bu məhsul sərin yerdə saxlanılır.

Kənd sakini, yaşı 70-i ötmüş Xədicə nənə də öz nəvəsi ilə qonşudakı bağından şaftalı yığmağa gəlmişdi. Fürsətdən istifadə edib onunla da həmsöhbət olduq, adı və dadı dillər əzbəri olan şaftalı qurusunun hazırlanma qaydasını soruşduq. O bildirdi ki, bu yerlərdə dadı, tamı ilə yanaşı, ətri ilə də fərqlənən şaftalı növü zəfəran şaftalısıdır. Qurudulmuşunun dad-tamına söz ola bilməz. Başqa şaftalı növləri də qurudulur. Belə ki, tam yetişmiş şaftalı yığılır, təmizlənir, gün düşən yerə sərilir. Bu meyvə, adətən, qax şəklində qurudulur. Qurumuş şaftalı uzun müddət qalsın deyə, onu duzlu suya salır, təkrar sərib quruduruq. Əzəldən belə görmüşəm ki, analarımızın, nənələrimizin öz barlı-bərəkətli torpağımızda yetişdirilən meyvələrdən qurutduqları məhsul həm dadı, həm də faydası ilə fərqlənib. Müharibə illərində qənd tapmayanda meyvə qurusu ilə çay içib, qaysava bişirib yeyiblər.

Nənə və təsərrüfatdakılarla sağollaşıb, şəhərə qayıdıram. Elimizin bu dadlı meyvəsi haqqında yazı hazırlamazdan əvvəl bu nemət haqqında mütəxəssislərin dediklərini xatırlayıram:



– Yay meyvələrindən ən dadlı və ən şirini olan şaftalının faydaları saymaqla bitməz. Meyvənin qabığını soymadan yemək daha faydalıdır, çünki onun ən xeyirli hissəsi qabığına yaxın hissədədir. Şaftalı infeksiyalara qarşı təsir göstərməklə yanaşı, böyrəklərdəki xırda daş və qumları tökmək təsirinə malikdir, böyrəyin fəaliyyətini də yaxşılaşdırır. Tez-tez şaftalı yemək ağız boşluğunda yaraların əmələ gəlməsinin qarşısını alır. Tərkibində olan K vitamini sayəsində ürək xəstəliklərinə yaxşı təsir göstərir. Onun tərkibində olan liflər qanda xolesterolun səviyyəsini aşağı salır. Bu meyvə antioksidant təsirə malikdir. Şaftalının tərkibində olan sərbəst radikallar günəş işığından orqanizmə dəyən zərərləri aradan qaldırır, müxtəlif xəstəliklərdən qoruyur. Meyvənin tərkibində C vitamini travma sayəsində toxumalarda meydana çıxan zədələrin sürətlə sağalmasına yardım edir, turşular isə onun infeksiyalara məhvedici təsirini və sümüklərə faydasını artırır. Şaftalı arıqlamaq istəyənlər üçün mükəmməl bir qida maddəsidir. Çünki kalori dəyəri aşağı olmaqla yanaşı, insanda toxluq hissi yaradan bir meyvədir.

Şaftalı tərkibində olan A vitamini sayəsində sümüklərin möhkəmlənməsinə yardım edir və sümük xəstəliklərinin artması riskini azaldır. Bir şaftalının tərkibində, təxminən, 285 qram kalium olur. Şirəsinin tərkibində A, C, B[3] vitaminləri, betakaroten, fol turşusu da var. Bu meyvənin suyu qanı təmizləmək qabiliyyətinə malikdir. O, damarlarda spazmların baş verməsinin qarşısını alır, qan dövranının bərpasına yardım edir. Şaftalı suyu qızdırmasalıcı təsirə də malikdir.

Bu gün muxtar respublikamızda hər sahədə olduğu kimi, meyvəçiliyin inkişaf etdirilməsinə də geniş imkanlar açılıb. Dövlət qayğısından bəhrələnən hər bir torpaq adamı öz təsərrüfatında istədiyi meyvəni yetişdirə bilir. Bu isə yerli bazara başqa yerlərdən gətirilən və genofondu dəyişdirilmiş meyvələrin qarşısını alır. Bundan isə həm bağbanlarımız qazanır, həm də muxtar respublika sakinləri. Qədim diyarımızın müxtəlif bölgələrində yetişdirilən şaftalı həmin meyvələr içərisində özünəməxsus yer tutur.

**✍ Telli MƏMMƏDOVA**

## Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması istiqamətində işlər yekunlaşmaq üzrədir

***Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması torpaqlardan səmərəli istifadə olunmasında mühüm əhəmiyyət daşıyır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 2 aprel tarixli Fərmanına uyğun olaraq muxtar respublikada torpaqların elektron uçotunun aparılması, xəritələşdirilməsi və torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması istiqamətində əsas işlər yekunlaşdırılıb. Göstərilən dövlət qayğısı sayəsində sistemin fəaliyyətinin təmin edilməsi üçün xidmətin informasiya infrastrukturu təkmilləşdirilib, yeni serverlər və təhlükəsizlik avadanlıqları alınaraq quraşdırılıb. Proqram təminatı hazırlanaraq xüsusi serverə yüklənib.

Hazırda sistem xidmətin mütəxəssisləri tərəfindən sınaq rejimində istismar olunur, qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması üçün təkmilləşdirmə işləri aparılır. Bununla yanaşı, vətəndaşların qanuni istifadəsində olan və torpaq islahatı zamanı onların mülkiyyətinə verilmiş torpaq sahələrinə və onların mülkiyyətçilərinə dair məlumatlar vahid formada yığılaraq sistemə daxil edilib. Muxtar respublikanın bütün yaşayış məntəqələrində torpaq sahələrinin konturlarının dəqiqləşdirilməsi üçün aparılan çöl geodeziya ölçmələri başa çatdırılıb, yaşayış məntəqələrinin yeni elektron yerquruluşu xəritələri hazırlanıb. Sistemin daşınmaz əmlakın dövlət reyestrinə inteqrasiyası təmin edilib.

Qeyd edək ki, elektron kadastr uçotu sistemi torpaq uçotunun müasir tələblərə uyğun aparılmasına, məkan məlumatları infrastrukturunun formalaşmasına, bu sahədə aparılan işlərin texnoloji cəhətdən modernləşdirilməsinə imkan verir. Adıçəkilən sistemin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi işinin başa çatdırılması torpaqların səmərəli idarə olunmasına, kadastr işlərinin yüksək dəqiqliklə aparılmasına, torpaq idarəçiliyində daha mütərəqqi idarəetmə metodları və müasir mexanizmlərin tətbiqinə, mükəmməl torpaq bankının formalaşdırılmasına şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Qışlamaya hazırlıqla bağlı tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Dövlət Baytarlıq Xidmətinin əməkdaşları Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə bağlı rayonun bir neçə ailə təsərrüfatı başçıları ilə tədbir keçiriblər.



Tədbiri Babək Rayon İcra Hakimiyyətinin əməkdaşı Məhəmməd Seyidov açaraq qeyd edib ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl işlər görülür. Yaradılan şəraitin nəticəsidir ki, ailə təsərrüfatlarının sayı getdikcə artır, ailə biznesi genişlənir.

Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Əyyub Abdullayev, Dövlət Baytarlıq Xidmətinin əməkdaşı Hüseyn Məmmədov tədbirdə çıxış edərək qışlama dövründə mal-qaranın yemləndirilməsi, saxlanması və zoobaytar qaydalarına uyğun qulluq edilməsinin əhəmiyyəti, baytarlıq tədbirlərinin vaxtında aparılmasının vacibliyindən danışıblar. Bildirilib ki, mal-qarası çox olan iri təsərrüfat sahibləri onların yaşına, məhsuldarlığına və fizioloji vəziyyətinə uyğun bina və bölmələr hazırlamalıdırlar. Tövlələr dezinfeksiyaedici maddələrlə dezinfeksiya, dezinseksiya və derotizasiya edilməlidir.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Oruc Həsənlinin 70 illik yubileyi qeyd olunub



*AMEA Naxçıvan Bölməsində AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor Oruc Həsənlinin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.*

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək tədbirin iyulun 16-da Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin iclasında Oruc Həsənlinin 70 illik yubileyinin qeyd edilməsi ilə bağlı müvafiq qərara əsasən təşkil edildiyini bildirib. Qeyd olunub ki, professor Oruc Həsənli 1950-ci il avqustun 15-də Şərur rayonunun Ələkli kəndində anadan olub, 1967-ci ildə orta məktəbi bitirib, 1968-1972-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil alıb. Bir müddət kənd məktəbində müəllim, sonra Naxçıvan Dövlət Universitetində assistent, müəllim, baş müəllim və dosent vəzifələrində işləyib, Naxçıvan Dövlət Universitetinin professoru olub. 1993-2008-ci illərdə “Naxçıvan” Universitetinin tədris işləri üzrə prorektoru işləyən Oruc Həsənli 2010-cu ildən Naxçıvan Müəllimlər İnstitutunun rektoru vəzifəsində çalışıb. 1992-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru, 2006-cı ildə isə pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi alan Oruc Həsənli 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. Uzun illər muxtar respublikada pedaqoji kadrların hazırlanmasında böyük əmək sərf edən ziyalının səmimiliyi, ünsiyyətcilliyi, sadəliyi və xeyirxahlığı onu həm çalışdığı kollektivə, həm də tələbələrinə sevdirib. 220-dən artıq elmi əsərin, o cümlədən 26 kitab və monoqrafiyanın müəllifi olan Oruc Həsənlinin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, 2007-ci ildə o, “Tərəqqi” medalı ilə təltif edilib, 2014-cü ildə “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb. Muxtar respublikanın ictimai həyatında yaxından iştirak edən Oruc Həsənli 3-cü, 4-cü və 5-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilib. Ömrünü elmin inkişafına həsr edən gözəl insan, fədakar alim Oruc Həsənlinin xatirəsi muxtar respublikamızda yaşadılır və bundan sonra da unudulmayacaqdır.



Akademik İsmayıl Hacıyev çıxışının sonunda tədbir iştirakçıları, elm və təhsil işçiləri adından göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıq edib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli tədbirə onlayn formada qoşularaq “AMEA-nın müxbir üzvü Oruc Həsənlinin elmi-ictimai fəaliyyəti” mövzusunda çıxış edib. O bildirib ki, keçirilən tədbir Azərbaycan pedaqogika və psixologiya elminin inkişafında böyük rolu olan Oruc Həsənlinin xatirəsinə ehtiramın ifadəsi, eyni zamanda Ali Məclis Sədrinin muxtar respublikada alimə, elmə, görkəmli sənətkarlara dövlət səviyyəsində göstərdiyi diqqət və qayğının parlaq ifadəsidir.

Vurğulanıb ki, Oruc müəllimin əsas fəaliyyəti pedaqogika, pedaqogikada isə diyarşünaslıqla bağlı olub. Diyarşünaslıq özündə pedaqogikanı birləşdirməklə yanaşı, eyni zamanda vətənpərvərlik, diyarı sevmək, diyarın görkəmli şəxsiyyətlərini öyrənmək, tanımaq, tanıtmaq baxımından əhəmiyyətlidir. Alimin pedaqogika və diyarşünaslıq sahəsində apardığı tədqiqatlar pedaqoji əhəmiyyəti ilə yanaşı, həm də geniş mənada, sosial və ictimai xarakteri ilə də seçilir. Vurğulanıb ki, bütün bunlara görə də Oruc Həsənlinin tədqiqatları pedaqogika sahəsində olduğu kimi, ictimai elmlərin tarixində də özünəməxsus yer tutur və mühüm əhəmiyyətə malikdir.

Qeyd olunub ki, Oruc müəllim muxtar respublikada pedaqoji fəaliyyətlə də səmərəli məşğul olub. Onun fəaliyyətinin böyük hissəsi Naxçıvan Dövlət Universiteti ilə bağlı idi. Tədris etdiyi Diyarşünaslıq və Sosial psixologiya fənləri yeni nəslin milli şüurunun, vətənpərvərlik tərbiyəsinin formalaşmasına, ölkə dəyərlərinin daha dərindən sevilməsinə, öyrənilməsinə şərait yaradırdı. Oruc müəllim pedaqogika və psixologiyada ictimai və sosialyönümlü dəyərləri bir pedaqoq, müəllim, tədqiqatçı alim kimi özünəməxsus şəkildə səciyyələndirirdi. Onun həm də yaxşı təşkilatçı və rektor kimi Naxçıvan Müəllimlər İnstitutunun yenidən qurulmasında, inkişaf etdirilməsində mühüm xidmətləri olub.

Akademik İsa Həbibbəyli qeyd edib ki, AMEA-nın müxbir üzvü kimi fəaliyyəti qısa dövrü əhatə etsə də, tanınmış alim Azərbaycan miqyasında pedaqogika və psixologiya elminə, eləcə də təhsilə verdiyi töhfələrlə daim xatırlanacaq.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov “Professor Oruc Həsənli



və Naxçıvan Müəllimlər İnstitutu”, Bakı Elm və Təhsil Mərkəzinin prezidenti, pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov “Şərəfli alim ömrünün dəyərli səhifələri”, Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri, filologiya üzrə elmlər doktoru, professor Akif İmanlı “Pedaqoji kadrların hazırlanmasında Oruc Həsənlinin xidmətləri” mövzularında çıxış edərək tanınmış təhsil təşkilatçısı və nüfuzlu alimin elmi, ictimai fəaliyyətindən geniş söhbət açıblar.

Sonra mərhumun ailə üzvlərindən həyat yoldaşı Zərifə Həsənli, oğlu Eldəniz Həsənli çıxış edərək minnətdarlıqlarını bildiriblər.

Sonda professor Oruc Həsənlinin elmi-pedaqoji və ictimai fəaliyyəti ilə bağlı slayda və alimin əsərlərindən ibarət sərgiyə baxış olub.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Əlincəçay mahalının epiqrafik abidələri




*AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin “Əlincəçay mahalının epiqrafik abidələri” adlı monoqrafiyası çap edilib.*

Yeni nəşrdə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanın epiqrafik abidələrinin geniş yayıldığı yerlərdən biri, Əlincəçayın adı ilə adlanan mahala daxil olan yaşayış məskənlərində qeydə alınaraq tədqiq edilən epiqrafik abidələr işıqlandırılıb.

Azərbaycanın orta əsrlər dövrü siyasi-iqtisadi və mədəniyyət tarixinin bir sıra məsələlərinin aydınlaşdırılması üçün zəngin faktlar təqdim edən bu abidələr əsasında bəzi yaşayış məskənlərinin, memarlıq abidələrinin, qəbiristanlıqların tarixi müəyyənləşdirilib. Kitabələrin köməyi ilə çoxlu görkəmli şəxsiyyətin, o cümlədən Azərbaycan hökmdarlarının, orta əsrlər zamanı Əlincəçay mahalından çıxmış və ya orada yaşamış dövlət xadimlərinin, hərbçi sərkərdələrin, sufi təriqətləri rəhbərlərinin, kübar ailələrə məxsus qadınların və başqa insanların adları, daşıdığı titullar, vəfat tarixləri, qəbirlərinin yeri və sair aşkar edilərək elmi dövriyyəyə daxil edilib.

Monoqrafiyada Əlincəçay mahalına daxil olan yaşayış məskənlərindən günümüzədək gəlib çatan, yerli sənətkarlar tərəfindən hazırlanan sənduqə və qoç heykəl tipli qəbirüstü xatirə abidələrin orta əsrlər zamanı bu ərazidə daş üzərində işləmə – bədii daşyonma və xəttatlıq sənətinin inkişaf mərhələlərini izləməyə imkan verdiyini, bu sənətlərin yüksək dərəcədə inkişaf etdiyini təsdiq edən yeni məlumatlar öz əksini tapıb.

***AMEA Naxçıvan Bölməsinin Beynəlxalq əlaqələr və informasiya şöbəsi***

## Naxçıvanda teleradio yayımları yüksək texnologiyalar əsasında təşkil edilir

***Müasir dövrdə rabitə və informasiya texnologiyalarının qarşısında duran əsas məsələlərdən biri də əhalini keyfiyyətli teleradio yayımları ilə təmin etməkdir. Son illərdə muxtar respublikamızda bu sahədə mühüm addımlar atılıb, müasir texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılıb. Görülən işlərin nəticəsidir ki, bu gün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teleradioların, eləcə də ölkə və dünya televiziya və radiolarının yayımı muxtar respublikanın yaşayış məntəqələrinin 100 faizini əhatə edir. Bu məqsədlə Duzdağ, Ordubad və Şərurda Radio-Televiziya Ötürücü stansiyalarında müasir texnologiyalara əsaslanan radio-televiziya ötürücü sistemləri quraşdırılıb.***

Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxs tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində yayımlanan DVB-T standartlı rəqəmsal televiziya proqramlarının və FM bandlı radio proqramlarının yayım əhatə dairəsinin genişləndirilməsi, efir məkanının keyfiyyətli və dayanıqlı yayımla təmin olunması üçün də müntəzəm olaraq işlər görülür. Təsadüfi deyil ki, məhz Cənubi Qafqazda SFN təkkanallı rəqəmsal televiziya şəbəkəsi ilk dəfə muxtar respublikamızda tətbiq olunub. Hazırda Naxçıvan ərazisi 50 ədəd rəqəmsal verici vasitəsilə 100 faiz rəqəmsal yayımla təmin olunub. Eyni zamanda 10 radio proqramı rəqəmsal paketin tərkibində izləyicilərə təqdim edilir.

Vurğulayaq ki, ölkədə ilk HD formatda yayımı təşkil edilən Naxçıvan Dövlət Televiziyasının IP və internet televiziyaları üzərindən HD formatında yayımı təmin olunub. Bununla da doğma kanalımızın yüksəkkeyfiyyətli yayımı muxtar respublikanın bütün ərazilərində, eləcə də dünyanın istənilən məkanında izləyicilər üçün əlçatan olub. Bu isə muxtar respublikanın informasiya blokadasının yarılmasında əhəmiyyətli rol oynayır.

Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsdə yeni texnologiyalar tətbiq olunmaqla xidmət səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, Duzdağ Radio-Televiziya Ötürücü Stansiyasında “Azad Azərbaycan” Müstəqil Teleradio Kompaniyasının proqram verilişlərinin yayımlandığı “Elektronika Mira” markalı radioverici İtaliyanın ELENOS firmasının istehsalı, çıxış gücü 1 kvt olan müasir və yüksəkkeyfiyyətli radioverici qurğu ilə əvəz edilərək istismara verilib. Təbii ki, bu kimi uğurlu nəticələrin qazanılmasında informasiya və rabitə sahəsinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması mühüm əhəmiyyət daşıyır, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə yeni imkanlar yaradır.

Ötən dövrdə kənar ölkələrdən daxil olan tezlik interferensiyası nəticəsində yayım key-



fiyyəti aşağı düşmüş Badamlı, Türkeş, Aşağı Buzqov, Gərməçataq azgüclü televiziyaverici stansiyalarının fəaliyyətlərinin bərpa olunması üçün aşağı səs-küy gücləndiricisi (LNA) avadanlığının filtrləri Azərbaycan Respublikası Televiziya və Radio İstehsalat Birliyinin laboratoriyasına göndərilərək tezlik diapazonları tənzimlənib, stansiyaların 41-ci televiziya kanalının (ASI) rəqəmsal giriş qəbul paketi



üzərindən yayımı bərpa edilib. Bununla yanaşı, muxtar respublikada rəqəmsal yayıma keçid üçün əhalinin maarifləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxs və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Televiziya və Radio Verilişləri Redaksiyasının DVB-T standartlı rəqəmsal efir yayımının əhali arasında təbliği ilə əlaqədar hazırladığı videoçarx Naxçıvan Dövlət Televiziyası və Kanal 35 televiziyası, eləcə də sosial şəbəkələrdə yayımlanıb.

Naxçıvan Muxtar Respublikası ərazisində televiziya və radio yayım keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Adıçəkilən publik hüquqi şəxsdən aldığımız məlumata görə, Naxçıvan Muxtar Respublikası ərazisində televiziya və radio yayım keyfiyyətinin yüksəldilməsinə dair Tədbirlər planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsin mütəxəssisləri tərəfindən may-iyun aylarında Şərur, Culfa, Babək və Ordubad rayonları ərazisində texniki-normativ tələblərə uyğun olaraq radio və televiziya kanallarının efir keyfiyyətinin yoxlanması üçün monitorinqlər aparılıb, qeydə alınan çatışmazlıqlar aradan qaldırılıb. Payız-qış mövsümü ilə əlaqədar qrafik üzrə generator və güc mənbələri (UPS), stabilizator və monitorlara, eləcə də digər texniki avadanlıqlara baxış keçirilib, parametrlər diqqətdə saxlanılıb. Bununla yanaşı, Ordubad və Şərur Radio-Televiziya Ötürücü stansiyalarının hər birində 150 metrlik, Duzdağ Radio-Televiziya Ötürücü Stansiyasında 74 metrlik və mərkəzin həyətindəki 30 metrlik qüllələrdə yüksək hündürlüklü maneələrin nəzərə alınması məqsədilə 9 ədəd yeni müasir standartlara cavab verən xəbərdarlıq işıqlandırma sistemi yenidən quraşdırılıb. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxsi Radio-rele və IP televiziya xidmətinə nəzarət heyətində DVB-T standartlı efir siqnallarının monitorinq olunması üçün “Microtower PC HP 290G2” tipli serverin bazasında “Multiview” sistemi istismara verilib.

Görülən işlərdən belə qənaətə gəlmək olar ki, dövlət qayğısı ilə tam əhatə olunmuş Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxs bu sahəyə göstərilən dövlət qayğısından bəhrələnərək öz fəaliyyətini bundan sonra da nümunəvi təşkil edəcək.

**Gülcamal TAHİROVA**

*Şair-dramaturq Adil Qafar oğlu Babayev 1925-ci il yanvar ayının 27-də Naxçıvan şəhərində dünyaya gəlmişdir. Atası Qafar Babayev Naxçıvan Fövqəladə Komissiyasının sədri, Daxili İşlər komissarı vəzifəsində işləməsinə baxmayaraq, 1925-ci ildə SSRİ Xalq Komissarları Sovetinin sədri A.Rıkovun Naxçıvan səfərindən sonra güllələnmişdir. Adil Babayev uşaqlıq illərindən atasına 1956-cı ildə verilən bəraətə qədər "Xalq düşməninin oğlu" damğasını qorxa-qorxa gəzdirməyə məhkum olmuşdu. Bəlkə də, məhz bu nisgilli həyat onun ömrünün tez başa çatmasına, 52 yaşında dünyasını dəyişməsinə səbəb olmuşdur. O, 1977-ci il avqust ayının 19-da dünyasını dəyişmişdir.*



# Ömürdən doymamışam, həyatdan doymamışam

Ata nəvazişi görməyən şair "Üç miras qalıbdır atamdan mənə: bir adım, bir dilim, bir də ürəyim", – deyirdi. Adil Babayev şeirlərinin birində atasızlığın onun həyatına təsirini belə qələmə almışdır:

*Mən atamı görməmişəm at belində,*
*Ata-baba ocağında, dost elində.*
*Simasını yaratmışam xatirələr qaynağından,*
*Neçəsinin heyrətindən, neçəsinin sorağından.*
*Anam nağıl deyən zaman gözlərimə atam gəlib,*
*Şeir yazıb, söz qoşmuşam, sözlərimə atam gəlib.*

Şairin dostu və müasiri Xalq şairi Bəxtiyar Vahabzadə Adil Babayevin həyatını belə təsvir etmişdir: "Adilin atası repressiya qurbanlarından biri idi. Buna görə də Adil çox yerdə sıxıntı keçirir, çox yerdə sözünü açıq deyə bilmirdi…"

Xalq şairi Səməd Vurğunun Adil Babayevin 1945-ci ildə qələmə aldığı "Çinar" şeirinə böyük qiymət verməsi və ona bundan sonra daha çox yazmağı məsləhət görməsi Adil müəllimin yaradıcılığında yeni dövrün başlanğıcı olur.

Şairin oğlu, Azərbaycan Respublikasının Əməkdar jurnalisti Etibar Babayev öz xatirələrində yazır: "Atam Səməd Vurğunun bu qayğısından və onun "Çinar" şeirinə verdiyi böyük qiymətdən o qədər ruhlanmışdı ki, mən atamın 1956-cı ildə deyil, məhz 1945-ci ildə Səməd Vurğun mənə verdiyi yüksək qiymətlərdən sonra bəraət almasını hiss etdim", – deyirdi.

O, 52 illik qısa ömrünün 38 ilini yaradıcılığa sərf edib, gələcək nəsillər üçün əsl sənət nümunələri yaradıb. Adil Babayev 4 teatr tamaşasının, 14 poema, 15 hekayə, 2 povest, 10 pyes, 250-dən çox sonetin və yüzlərlə publisistik məqalə və resenziyanın müəllifidir.

Şair rus və gürcü dillərini mükəmməl bildiyindən R.Taqor, D.Kuqildinov, A.Nekrasov, A.Turgenev, A.Sereteli, N.Dunbadze, Q.Abaşidze və sair yazarlardan çoxlu tərcümələr etmişdir.

Müəllif "Ümid sərvləri", "Mənim abidəm", "Təzədən doğulur şair ölən gün", "Pyeslər", "Ata sorağında", "Anamın bayramı", "Fəsillər dəyişəndə", "Yaşamağı bacarmıram" kitabları çap olunub. Onun onlarla şeirinə respublikanın tanınmış bəstəkarları mahnılar bəstələmişlər. "Ayrılıq olmasaydı" musiqi albomu Türkiyənin "Raks" şirkətində istehsal edilmişdir.

Adil Babayevin yaradıcılığı ilə tanış olan hər bir oxucu onun Vətəninə, torpağına bağlı bir vətənpərvər insan, saf duyğuların tərənnümçüsü, yaşamaqdan doymayan, həyata bağlı bir şair olduğunu yaxşı bilir.

Şairin həyatındakı nisgil "Xalq düşməninin oğlu" damğası və haqsızlıqlarla tez-tez üzləşməsi kimi hallar hər hansı bir insanda olsaydı, bu qədər yazıb-yaratmaq, həyata bağlılıq həvəsi olmazdı. O, "Yaşamağı bacarmıram" şeirində öz narahat ürəyinin səsini belə tərənnüm edir:

…Qəh-qəh çəkib gülsün mənə,
neçə yaltaq, neçə harın.
Yaşamağı bacarmıram qoltuğunda
harınların.

Adil Babayev Azərbaycan ədəbiyyatında "sonet ustası" kimi tanınan bir şair olmuşdur. Onun həyatının sonuna bir gün qalmış taqətsiz barmaqları ilə yazdığı "Nağıllar heç zaman kədərli olmur" sonuncu soneti olmuşdur. Həmin sonetdə oxuyuruq:

*Mən ömür istəmirəm riya, xəyanət üçün,*
*Yurduma gərək olan söz üçün, sənət üçün.*
*Ömürdən doymamışam,*
*Həyatdan doymamışam.*

Adil Babayevin xatirəsinin əbədiləşdirilməsi üçün Bakı və Gəncə şəhərlərində onun adı küçələrə verilib. Doğma yurdu Naxçıvanda isə dünyasını dəyişəndən bir il sonra Naxçıvan MSSR Nazirlər Sovetinin 1978-ci il 18 avqust tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasına şairin adı verilib. Hazırda kitabxana şair-dramaturq Adil Babayevin adını daşıyır.

Kitabxananın girişində qoyulmuş "Adil Babayev" başlıqlı daimi sərgi-stenddə şairin həyat və fəaliyyətini əks etdirən fotolar, kitablar və haqqında yazılan digər çap məhsulları yer alır.

Adil Babayevin doğum və anım günlərinin daha geniş təşkili məqsədilə hər il kitabxanada "Adil Babayev həftəsi" təşkil edilir, şairin poema, şeir, oçerk və digər yazılarının oxucular arasında oxu və müzakirələri keçirilir, ümumtəhsil məktəblərində şagirdlərin ifasında poema və şeirlərin qiraət müsabiqələri təşkil olunur. Bundan başqa, Adil Babayevin kitablarından ibarət məktəb, park və əhalinin sıx yaşadığı məhəllələrdə səyyar kitab sərgiləri keçirir, kitabxana oxucularının və digər ziyalılarımızın şair və yazıçıların iştirakı ilə dəyirmi masalar təşkil olunaraq yaradıcılığının təbliğinə çalışırıq.

*Biz kitabxana kollektivi olaraq bundan sonra da Adil Babayevin həyat və yaradıcılığı ilə hər bir məktəbli, gənc oxucunun tanış olması, onun əsərlərini mütaliə etməsi üçün böyük həvəslə təbliğat işləri aparmağa çalışacağıq.*

**Kəmaləddin AXUNDOV**
***Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru***

# Bələdiyyə torpaqlarının icarəyə verilməsinin monitorinqi aparılır

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında Ədliyyə Nazirliyinə bələdiyyələr tərəfindən torpaqların icarəyə verilməsi zamanı qanunvericiliyə əməl edilməsinə nəzarət olunması tapşırığı verilib. Tapşırığın icrası məqsədilə Ədliyyə Nazirliyinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin əməkdaşlarından ibarət işçi qrup rayon İcra hakimiyyətləri nümayəndələrinin də iştirakı ilə bələdiyyə mülkiyyətində olan torpaqların qanunvericiliyə uyğun icarəyə verilməsinin monitorinqini keçirir.

İşçi qrup ilk dəfə Babək və Culfa rayonlarında fəaliyyət göstərən bələdiyyələrdə olaraq bələdiyyə sədrləri ilə görüşüb və icarəyə veriləcək torpaq sahələrinə baxış keçiriblər. Monitorinqlərdə qeyd olunub ki, bələdiyyə torpaqlarının mənfəət əldə etmək məqsədilə hüquqi və fiziki şəxslərə icarə əsasında verilir. Kənd bələdiyyələrində torpaqların icarəyə verilməsi torpaqların əkin dövriyyəsinə cəlb olunmasına təsir edir ki, bu da ərzaq təhlükəsizliyinin təmin edilməsində çox əhəmiyyətlidir.

Bildirilib ki, torpağın icarəyə verilməsi ilə bağlı məsələlərin qanunvericiliklə tənzimlənməsi torpağın icarəyə verilməsi hüququnun həyata keçirilməsinə geniş imkanlar yaradır. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən bələdiyyə mülkiyyətində olan torpaqlar qanunvericiliklə müəyyən edilmiş qaydada icarəyə verilə bilər. Bələdiyyə torpaqlarının icarəyə verilməsi şərtləri, müddəti və icarə haqqı tərəflərin razılığı ilə müəyyən edilir, bələdiyyələrlə icarəçilər arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanılan müqavilədə təsbit olunur. Sonra torpaq icarəsi haqqında münasibətlərin pozulmasına görə qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyət barədə ətraflı məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# Yüngül Atletika Federasiyasının iclası keçirilib

***Dünən Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının iclası keçirilib.***



Yığıncağın gündəliyində federasiyanın fəaliyyəti və görülən işlərin hesabatı, eləcə də yeni sədrin seçilməsi və Nizamnaməsində dəyişiklik edilərək "Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası" adının "Naxçıvan Atletika Federasiyası" adı ilə əvəz edilməsi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur Rayon Ağır Atletika Bölməsinin və "Xatun" Bədii Gimnastika İdman Klubunun Federasiyanın tərkibinə daxil edilməsi məsələlərinə baxılması nəzərdə tutulmuşdu.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov açaraq bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülür. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclər bütün idman növlərinə maraq göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2020-ci il 1 fevral tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə aid təşkilatlara konkret tapşırıqlar verib, 2020-ci il 14 fevral tarixdə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb. Proqramın icrası ilə əlaqədar artıq bir çox işlər həyata keçirilib. Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən idman obyektləri və zallarında idmançıların mövcud idman qurğu və zallardan istifadələrinə, həmçinin imkansız ailələrdən olan yeniyetmə və gənclərin ödənişsiz şəkildə idmanla məşğul olmalarına şərait yaradılıb, federasiyalardan bu qəbildən olan idmançılar haqqında məlumatlar toplanılıb, onların sosial problemlərinin həlli üçün tədbirlərin görülməsi planlaşdırılıb. Nazir muxtar respublikada yaradılan müasir idman infrastrukturundan da danışıb.

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov çıxışında vurğulayıb ki, muxtar respublikada yaradılan şərait nəticəsində yüngül atletika ilə məşğul olanların sıraları daha da genişlənib və bu sahədə müxtəlif idman tədbirlərinin keçirilməsinə əlverişli şərait yaradılıb. Federasiya yarandığı gündən öz işini günün tələblərinə uyğun quraraq bir çox istedadlı gənc idmançı üzə çıxarıb. Lakin buna baxmayaraq, nöqsanlar da çoxdur. Belə ki, federasiya yaradılan şəraitdən düzgün yararlanmayıb, təcrübəli məşqçilər dəvət olunmayıb, muxtar respublikada ölkə və beynəlxalq səviyyəli yarışlar təşkil edilməyib.

Sonra Azad Cabbarov çıxış edərək bildirib ki, muxtar respublikada ayrı-ayrı idman növləri üzrə 12 federasiya, o cümlədən 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası yaradılıb. Uşaq, yeniyetmə və gənclərin bu idman növünə cəlb edilməsi üçün maddi-texniki baza möhkəmləndirilib, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib. Buna baxmayaraq, federasiya işini günün tələblərinə uyğun qurmağı, yaradılan şəraitdən, infrastrukturdan düzgün istifadə etməyi bacarmayıb. Yüngül Atletika Federasiyası Ali Məclis Sədrinin muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının qarşısında qoyduğu vəzifələrin öhdəsindən layiqincə gəlməyib, yaxşı idmançılar olmasına baxmayaraq, onların məşq etməsinə şərait yaratmayıb, idmançılar Azərbaycan və beynəlxalq səviyyəli yarışlarda uğurlu çıxış etməyib, keçirilən muxtar respublika səviyyəli yarışlarda keyfiyyət və təşkilatçılıq aşağı səviyyədə olub.

Azad Cabbarov Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədovun Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasına sədrliyinə namizədliyini irəli sürüb.

Təklif yekdilliklə qəbul olunub və Rəhman Məmmədov federasiyasının sədri seçilib.

Yeni təyin olunan federasiya sədri çıxışında qeyd edib ki, uşaq və gənclərin sağlamlığına göstərilən qayğının bariz nümunəsidir ki, muxtar respublikamızda idman kompleksləri, Uşaq-Gənclər Şahmat və İdman məktəbləri fəaliyyət göstərir. Bununla yanaşı, ümumtəhsil məktəblərində ən müasir tələblərə cavab verən idman zalları və açıq idman qurğuları istifadəyə verilib. Yaradılan müasir şərait uşaq və gənclərin sağlamlığının qorunmasına, onlarda fiziki sağlam həyat tərzinin formalaşdırılmasına geniş imkanlar açır. Bütün bunlardan səmərəli istifadəni təmin etmək, uşaq və gənclərin müxtəlif idman növləri üzrə hazırlıq səviyyəsini yüksəltmək, istedadları aşkarlamaq, idmanın kütləviliyini təmin etmək məqsədilə muxtar respublikada idman federasiyaları da fəaliyyət göstərir. Bu federasiyalardan biri də Atletika Federasiyasıdır.

Rəhman Məmmədov vurğulayıb ki, muxtar respublikada bu federasiyanın əhatə etdiyi idman növlərinin inkişafı üçün zəruri baza vardır. Mövcud şəraitdən səmərəli istifadə edilərək federasiyanın əhatə etdiyi idman növləri üzrə kütləviliyə nail olunacaq, idmançıların ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin ediləcəkdir.

Çıxışlardan sonra federasiyanın Nizamnaməsindəki dəyişiklik "Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası" adının "Naxçıvan Atletika Federasiyası" adı ilə əvəz edilməsi səsə qoyularaq yekdilliklə qəbul olunub.

Gündəlikdə duran məsələlərlə əlaqədar qərar layihəsi oxunub.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov yekunda yığıncaq iştirakçıları adından idmanın inkişafına yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib, Rəhman Məmmədovu Atletika Federasiyasının sədri seçilməsi münasibətilə təbrik edib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayon Düdəngə kənd sakini İbrahimov Nəcəf İbrahim oğlunun adına verilmiş JN-870[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 605